

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 223 (24.360)

*1 dekabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Dubayda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP28 çərçivəsində təşkil olunacaq Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası – COP28-ə ev sahibliyi etməsi və bu tədbirin yüksək səviyyədə təşkil olunması münasibətilə Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana təbriklərini çatdırdı.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olundu.




Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirildi. Birləşmiş Ərəb Əmirliklərindən olan tərəfdaşlarla imzalanmış sazişlərə uyğun olaraq bərpaolunan enerjinin 10 qiqavata çatdırılacağı vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında yaradılmış birgə investisiya fondunun əhəmiyyəti qeyd edildi, bunun iqtisadi-ticari əlaqələrimizin və qarşılıqlı sərmayə sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyi bildirildi.

SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti – ADNOC arasında uğurlu əməkdaşlığın və birgə layihələrdə iştirakın əhəmiyyəti vurğulandı.

Birləşmiş Ərəb Əmirliklərinin "AD Ports Group" şirkətinin Azərbaycan ilə limanlararası, gəmiçilik, nəqliyyat, logistika sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, Orta Dəhliz istiqamətində nəqliyyat-logistika sahəsində tərəfdaşlığın böyük perspektivlərinin olduğu qeyd edildi.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Görüşdə regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## *"Heydər Əliyev: Mütərəqqi hüquq islahatlarının uğurlu davamı – mediasiya"* mövzusunda konfrans keçirilib




*"Naxçıvan Saray"da keçirilən konfransda əvvəlcə Azərbaycanda mütərəqqi hüquq islahatlarının əsasını qoyan Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.*

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, həm dövlətin qorunması, həm də hüquq islahatlarının həyata keçirilməsi Ümummilli Liderin prioritetlərindən olub. Belə ki, dahi şəxsiyyət ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra ilk apardığı 4 islahatdan biri kimi ölkədə hüquq islahatı, hüquqi dövlətin qurulması, məhkəmə-hüquq sisteminin yenidən formalaşdırılması olub, o cümlədən hüquq-mühafizə orqanları ilə bağlı tarixi fərman imzalayıb. Ölkə Prezidenti cənab İlham Əliyevin apardığı davamlı hüquq islahatlarının nəticəsində isə son dövrlərdə mediasiya sahəsində də kifayət qədər uğurlar qazanılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə başçısının burada apardığı islahatlar, səlahiyyətli nümayəndəlik institutunun yaradılması ilə yeni tərəqqi dövrü başlanılıb. Aparılmış yeni idarəetmə islahatından sonra "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" qəbul olunub. Proqramda 11 prioritet istiqamət nəzərdə tutulub ki, nəticədə, 5 ilin sonunda tam fərqli bir mənzərə ilə qarşılaşacağıq. Bu gün hüquq islahatı iqtisadi islahatla paralel gedir və ölkədə son dövrlərdə həm ədalət mühakiməsinin səmərəliliyinin artırılması, həm də müxtəlif norma yaratmaq fəaliyyəti istiqamətində görülmüş tədbirlər bu sahədə daha yüksək mərhələyə qədəm qoymağa əsas verib. Buna görə də mediasiya sahəsində əldə edilən uğurlu nəticə sonrakı mərhələdə beynəlxalq müstəviyə daşınmalıdır. Səlahiyyətli Nümayəndəlik tərəfindən bununla bağlı konsepsiya hazırlanıb və konsepsiyanın ana xəttini mübahisələrin alternativ həlli yolları təşkil edir.



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxışında qeyd edib ki, Ulu Öndər tərəfindən 2000-ci ildən başlanan məhkəmə-hüquq islahatları bu gün də uğurla davam etdirilir. Bu islahatların davamı kimi mediasiya haqqında qanunun qəbul olunması və beləliklə, mediasiya fəaliyyətinin başlanması məhkəmələrin iş yükünün azalmasına xidmət edib.

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Hüseyn Səfərov çıxışında bildirib ki, mediasiya sahəsinin üstün cəhətləri vardır. Belə ki, məhkəmələrin, əsasən, obyektiv həqiqəti üzə çıxarmaq imkanları olduğu halda mediasiya prosesində real həqiqəti üzə çıxarmaq daha asan olur. Çünki məhkəmə prosesləri ciddi qaydalar əsasında tənzimlənir, ancaq mediasiyada şəxsiyyət ayrı-ayrılıqda çağırılıb dindirilə bilir. Yəni mediatorun imkanları tələbləri barışığa gətirməkdə hakimlərdən daha çoxdur.

Azərbaycan Respublikası Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov çıxışında 2023-ci ildə şuraya daxil olmuş müraciətlər və mediasiya fəaliyyəti barədə məlumat verib. Bildirib ki, il ərzində Mediasiya Şurası və mediasiya təşkilatlarına, ümumilikdə, 40 min 826 müraciət daxil olub və hazırda onların 32 min 103-ü tamamlanıb. 35 min 863 müraciət ailə mübahisələri, 3 min 975 müraciət kommersiya mübahisələri, 988 müraciət isə əmək mübahisələri üzrə qeydiyyata alınıb. Daxil olan 40 min 826 işdən əsassız iddiaların və ilkin mediasiya sessiyalarında iştirak etdikdən sonra məhkəməyə müraciət etmək fikrindən imtina edən müraciətlər üzrə xitam verilən müraciətlərin sayı isə 6 min 821-dir. Bu isə məhkəmələrin iş yükünün azaldılmasında, əsassız iddiaların qarşısının alınmasında mühüm rol oynayıb.

Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri Vüsal Həsənov "Naxçıvan Muxtar Respublikasında vəkillik sahəsində aparılan islahatlar və mediasiyada vəkilin rolu", Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı Səttar Zamanov "Naxçıvan Mediasiya Təşkilatı ilə Naxçıvan Muxtar Respublikasının yerli qurumları arasında səmərəli əməkdaşlığın perspektivləri" və Naxçıvan Mediasiya Təşkilatının rəhbəri Yusif Həsənov "Naxçıvan Mediasiya Təşkilatının fəaliyyəti barədə hesabat, görülmüş işlər və qarşıda duran vəzifələr" mövzularında çıxış ediblər, müzakirələr aparılıb.

**✍ Nail ƏSGƏROV**

## *"Heydər Əliyev Azərbaycan multikulturalizminin banisidir"* mövzusunda seminar

*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev Azərbaycan multikulturalizminin banisidir" mövzusunda seminar keçirilib.*

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

Seminarda Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev muxtar respublikada dini-mənəvi dəyərlər istiqamətində görülən işlər haqqında danışaraq qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri Onun layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında qarşılıqlı anlaşma və hörmət əsasında davam etdirilir.

Qeyd edilib ki, bu gün muxtar respublikada 214 məscid və 17 dini icma fəaliyyət göstərir. Burada sağlam dini ideologiyanın formalaşması, dini təhlükəsizliyin təmin olunması, dini məsələlərin və ayinlərin dindarlar arasında düzgün təbliği, İslam dininin olduğu kimi çatdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi dini maarifləndirmə tədbirlərini diqqətdə saxlayır, müzakirələr aparır, kütləvi informasiya vasitələrinin imkanlarından səmərəli istifadə edir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ceyhun Məmmədov bildirib ki, müstəqillik illərində Ulu Öndərin rəhbərliyi ilə fərqli mədəniyyətlərə malik insanlar Azərbaycançılıq ideologiyası ətrafında birləşmiş, sülh şəraitində birgəyaşayış modeli formalaşmışdır. Bu gün dövlətimizin başçısı cənab İlham Əliyev multikulturalizmin Azərbaycan modelini dünyaya nümunə kimi təqdim edir.

Qeyd edilib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması bu sahədə atılan əhəmiyyətli addımlardandır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Azərbaycanın multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı əhəmiyyətli layihələr həyata keçirilir.

Tədbirdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin hazırladığı "Heydər Əliyev və multikulturalizm" sənədli filmi nümayiş etdirilib, dinimənəvi dəyərlərə həsr olunmuş sərgiyə baxış olub.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində tələbələrlə də görüş olub, Heydər məscid kompleksi ziyarət edilib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**



# Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili

*Azərbaycanın son iyirmi ildə qazandığı misilsiz nailiyyətlər, birmənalı olaraq Prezident cənab İlham Əliyevin müdrik siyasətinin, qətiyyətli, qüdrətli liderliyinin nəticəsi, bariz nümunəsidir. Cənab İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı olmaqla bərabər, həm də onun ən böyük Zəfərinin Müzəffər Komandanıdır.*

Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Prezident cənab İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan Respublikası misilsiz inkişaf yolu keçmişdir. Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, milli maraqlara söykənən daxili və xarici siyasəti qısa müddətdə ona xalq arasında böyük rəğbət, sonsuz inam və etibar qazandırdı. Məhz bu keyfiyyətlərinə görə xalqımız 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də cənab İlham Əliyevi öz müstəqil dövlətinə yenidən rəhbər seçdi.

1918-ci ildən başlanan 105 illik respublika tariximizə ən möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Prezident cənab İlham Əliyev Azərbaycanı sürətlə inkişaf etdirərək, onu bölgənin lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevirdi. 21-ci əsrdə ərazi bütövlüyünü bərpa etmiş yeganə dövlət olan Azərbaycan yalnız öz gücünə, xüsusən də Prezident cənab İlham Əliyevin əsəri olan güclü milli iqtisadiyyata söykənərək regionumuza sülh, əmin-amanlıq və inkişaf üçün yeni imkanlar gətirdi. Bu günün zirvəsindən dönüb ötən iki onilliyə nəzər saldıqda Azərbaycan Respublikasının necə bir yüksək inkişaf yolu keçməsinin şahidi oluruq. Son 20 ildə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının çiçəklənməsinə xidmət edən çox böyük tədbirlər görülüb, nəhəng infrastruktur layihələri həyata keçirilib, Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ilə ölkəmizin dünyaya çıxışı təmin edilib. Azərbaycanda xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açıb.

Tarix sübut etdi ki, Azərbaycan xalqı 2003-cü ildə taleyüklü məsələdə öz düzgün seçimini edib, tariximizin yeni mərhələsinin ən mühüm qərarını doğru qəbul etməyi bacarıb. 2003-cü ildən bəri Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, Azərbaycanda güclü müdafiə sənayesinin qurulması, Silahlı Qüvvələrin hərbi hazırlıq potensialının artırılması ilə bağlı görülən işlər öz bəhrəsini verdi. Bütün bu görülmüş işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasına yüksəldi.

Dövlət başçımız uzun onilliklərin əsas problemini – 86,6 min kvadratkilometrlik torpaqlarımızda ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və Konstitusiya quruluşunun təminini bir həmlə ilə həll etdi. Beləliklə, həm də Ulu Öndərin müqəddəs arzuları, vəsiyyətləri Müzəffər Komandanımızın rəhbərliyi ilə məhz "Heydər Əliyev İli"ndə gerçəyə çevrildi.

Son illərdə sürətlə dəyişməyə başlayan geosiyasi reallıqlar fonunda Prezident cənab İlham Əliyevin apardığı infrastruktur quruculuğu siyasətinin və xarici siyasət strategiyasının nə qədər uzaqgörən olduğunu sübut etdi. Bu gün Azərbaycan regionumuzda ən böyük mülki hava, Xəzər dənizində isə ən böyük dəniz yük donanmalarına malik ölkədir. Hazırda Prezident cənab İlham Əliyev Azərbaycanın "yaşıl enerji" ölkəsi statusunun dünya miqyasında möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparır. Azərbaycan qlobal proseslərin mənfi təsirindən minimum itkilərlə çıxan azsaylı ölkələrdən biri olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli strateji, enerji, nəqliyyat, logistika və kommunikasiya qovşağına, investorların maraq mərkəzinə çevrilmişdir.

Ötən dövrdə qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, innovativ və yüksək texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, bu sahədə sahibkarlığı dəstəkləmək və istehsal sahəsində məşğulluğu artırmaq məqsədilə görülən işlər, həmçinin Azərbaycan məhsullarının ixrac coğrafiyasını genişləndirmək imkanı vermiş, yüksək keyfiyyət standartlarına malik yerli məhsulların "Made in Azerbaijan" brendi adı altında xarici bazarlara çıxışını genişləndirmişdir.

Cənab Prezidentin hakimiyyətdə olduğu 20 il ərzində regionlarda olan sosial-iqtisadi inkişaf sürətlənmiş, bölgələrimiz paytaxt səviyyəsində quruculuq və abadlıq məkanına çevrilmişlər. Bu gün bu işlər işğaldan azad olunmuş ərazilərdə sürətlə davam etdirilir, Qarabağa Qayıdış missiyası üçün qlobal əhəmiyyətli işlər görülür.

Doğma Naxçıvanımız da daim ölkə başçısının bu sahədə olan qayğısını hiss edib, böyük logistik və tranzit potensialı nəzərə alınaraq Naxçıvanın Şərq və Qərb dəhlizinə çıxışı yüksək qiymətləndirilib, bu sahədə dayanıqlı infrastruktur formalaşdırılır. Hakimiyyətinin 20-ci illində – bu ilin iyun ayında imzalanmış "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" vasitəsilə mövcud potensialdan daha səmərəli istifadə etməklə bölgədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və davamlılığının təmin edilməsi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların hazırlanaraq icra olunması nəzərdə tutulur.

Cənab Prezidentin rəhbərliyi altında aparılan sosial siyasətin bir istiqaməti də rəqabətqabiliyyətli insan kapitalının formalaşması və yüksəkixtisaslı kadrların yetişdirilməsidir. Neft kapitalının insan kapitalına çevrilməsi ilə bağlı dövlət başçısının təşəbbüsü ilə xaricdə təhsil alaraq Vətənə qayıdan gənclərimiz respublikanın ictimai həyatında yaxından və səmərəli fəaliyyət göstərirlər.

1997-ci ildə Milli Olimpiya Komitəsinin Prezidenti seçildiyi vaxtdan bəri Azərbaycan gəncliyinin liderinə çevrilmiş cənab İlham Əliyevin siyasi-iqtisadi, sosial-mənəvi layihələrində idman və gənclik mövzusunun xüsusi yeri olub. 2007-ci il "Gənclər ili" elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olundu, Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndi.

*Ulu Öndərimiz Heydər Əliyevin arzu və vəsiyyətini əməllərində gerçəkləşdirərək Prezident cənab İlham Əliyev Ümummilli Liderimizin Azərbaycan üçün xilaskarlıq və rifah yolunu qətiyyətlə davam etdirmiş, doğma Azərbaycanımızı Qalib Ölkəyə çevirmişdir. Qalib xalqın Qalib Prezidenti, müzəffər Ordunun Ali Baş Komandanı, dünya azərbaycanlılarının Lideri cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan qarşısında daha geniş üfüqlər açılmışdır. Əminliklə deyə bilərik ki, həmişə olduğu kimi, bundan sonra da uzun illər xalqımız Prezident möhtərəm cənab İlham Əliyevin ətrafında sıx birləşərək böyük uğurlara imza atacaq.*

**Mirməcid SEYİDOV**
*Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri vəzifələrini müvəqqəti icra edən nazir müavini, Azərbaycan Vətən Müharibəsi və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri*

## Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.***

## Azərbaycançılıq ideologiyası milli həmrəyliyimizin təməlidir



**Mübariz HƏSƏNOV**
***İstanbul Piri Rəis Universitetinin professoru***

Təqribi sayı 50 milyon olan azərbaycanlıların 40 milyondan çoxu bu gün dünyanın müxtəlif ölkələrində yaşayır. Azərbaycanlıların hazırda ən çox yaşadığı ölkələrdən biri də Türkiyə Respublikasıdır. Türkiyədə Azərbaycan əsilli vətəndaşların əsas yerləşdiyi ərazilər Qars və İğdır bölgələridir ki, burada ötən əsrin əvvəllərində mühacirət etmiş soydaşlarımız yaşayır. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə Azərbaycandan Türkiyəyə axın edənlər, əsasən, təhsil, biznes və yaşamaq üçün gələnlər olmuş, başda İstanbul və Ankara olmaqla, bir çox şəhərlərdə yerləşmişlər.

Türkiyə həm də bu gün ən böyük Azərbaycan diasporunun mövcud olduğu ölkədir. Hamımıza məlumdur ki, Ümummilli Liderimiz Heydər Əliyev milli diaspor quruculuğu sahəsində əvəzolunmaz işlər görmüşdür. Belə ki, Ulu Öndər 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu barədə qərar qəbul etmişdir. Məhz bu addım dünya azərbaycanlılarının milli həmrəyliyinin əsasını qoymuşdur.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələb və xahişlərindən sonra ali hakimiyyətə qayıdışı bir çox sahələr kimi, diaspor quruculuğu sahəsində də mühüm işlərin həyata keçirilməsi ilə yaddaşlara yazıldı. Dahi şəxsiyyət, hər şeydən əvvəl, dünya azərbaycanlılarının birliyi məsələsini Azərbaycançılıq ideologiyası üzərində quraraq ümummilli həmrəyliyi təmin etdi. Bunun nəticəsidir ki, hazırda dünyanın müxtəlif ölkələrində, o cümlədən Türkiyədə yaşayan azərbaycanlılar vahid ideologiya ətrafında sıx birləşərək Vətənimizin hərtərəfli inkişafında mühüm rol oynayırlar. Bu işdə Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin də rolu az deyil.

Statistikaya görə, hazırda bu ölkədə azərbaycanlı tələbələrin sayı 15 minə yaxındır. Bu il ərzində Türkiyə Cümhuriyyətinin 100 illiyi və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Türkiyənin ali təhsil müəssisələrində çoxsaylı tədbirlər keçirilmiş, bu tədbirlərdə Azərbaycan diasporunun nümayəndələri ilə bərabər, Azərbaycan mədəniyyət və dostluq mərkəzlərinin, dərnəklərin üzvlərinin iştirakı da təmin edilmişdir. Xüsusilə son illərdə Türkiyədə Azərbaycanla bağlı keçirilən tədbirlərdə ölkəmizin təbliği üçün geniş imkanlar açılmış, hər iki qardaş ölkə arasında qarşılıqlı səfərlər və görüşlər təşkil edilmiş və nəticədə, Türkiyə-Azərbaycan qardaşlığı daha da möhkəmlənmişdir. Təbii ki, bütün bu işlərin görülməsində qardaşlıq bağları ilə bərabər, diaspor fəaliyyətinin də əməyi göz önündədir.

Bu gün müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycançılıq ideologiyası ətrafında birləşməsi və fəaliyyəti mühüm istiqamətlərdən biridir. Düşünürəm ki, Naxçıvan Muxtar Respublikasında nəşr olunan rəsmi "Şərq qapısı" qəzetində "Heydər Əliyev İli" çərçivəsində "Həmrəyliyimizin ən böyük ideyası-Azərbaycançılıq" rubrikası ilə veriləcək yazılar bu ideoloji xəttin təbliği baxımından böyük rol oynayacaqdır.

## *"Ən yaxşı beynəlxalq layihə"* nominasiyasının qalibi




*Türkiyənin Qaradəniz Texniki Universitetinin (KTÜ) Texnologiya Transferi Tətbiq və Araşdırma Mərkəzi tərəfindən təşkil edilən, "16-cı Xəyalından Gerçəyinə Beynəlxalq Layihə Bazarı" festivalı yekunlaşıb.*

Məlumat üçün bildirək ki, rəhbəri Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalov, layihə qrupu üzvləri isə Daşqın Məmmədov, Azad Əzizzadə və Tural Allahverdi olan ali təhsil ocağının startap komandası "Ağıllı ev" layihəsi ilə festivala qatılaraq "Ən yaxşı beynəlxalq layihə" nominasiyasına layiq görülüb. Festivala təqdim edilən layihə evi cinayətkarlardan qorumaq üçün təhlükəsizlik sensorlarının quraşdırılması, havanın temperaturundan asılı olaraq kondisionerlərin işə düşməsi, yağış yağan zaman açıq olan pəncərə və qapıların avtomatik bağlanması, eyni zamanda uzaq məsafədən bunun idarə olunması, günəş enerjisi ilə evin işıqlandırılması, əlil olan şəxslər üçün səslə evdəki əşyaların işə salınması və digər bunun kimi bir çox innovativ xüsusiyyətləri özündə cəmləşdirib.

Tədbirin açılış mərasimində Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı və universitetin Texnoloji Transfer Tətbiq və Araşdırma Mərkəzinin direktoru, professor Oktay Yıldız layihə mədəniyyətinin sənaye kooperasiyası ilə vəhdətinin zəruriliyini vurğulayıb.

Qeyd edək ki, festivalda, ümumilikdə, 140 akademiya, tələbə və sahibkar statusunda layihə müraciətləri qəbul edilib, BMT-nin Davamlı İnkişaf Məqsədləri prioritetləri çərçivəsində hazırlanmış müxtəlif kateqoriyalar üzrə 80 innovativ və sahibkarlıq biznes ideyasının layihələri ilkin qiymətləndirmə proseslərindən sonra müxtəlif qurumlara təqdim edilib.

Festival çərçivəsində sahibkarlıq mütəxəssisi Eren Yılmaz tərəfindən "Sahibkarlığa Dəstək, Mələk İnvestisiya və sahibkarlıqlardan gözləntilər", patent ekspertləri Hülya Sabır və Kərim Sönməzin təşkilatçılığı ilə "İdeyamı necə qorumalıyam?" adlı seminarlar keçirilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

**Ulu Öndər Heydər ƏLİYEV:** ***Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir.***

# Bədii fikrin qoca vulkanı



*"Xalq şairi Məmməd Araz"*
*Rəssam: Həbibə Allahverdiyeva*

Xalq şairi Məmməd Araz XX əsr Azərbaycan şeirinin yeni inkişaf yolunu müəyyənləşdirən və onun zirvəsini təşkil edən məharətli söz ustadı, qüdrətli bir sənətkardır. Bu görkəmli söz ustadı Azərbaycan poeziyasının inkişafı və zənginləşməsinə öz misilsiz töhfələrini vermişdir. Qırx ildən artıq bir mərhələdə özünün qeyri-adi sənətkarlıq qüdrəti, fövqəl poetik qələmi ilə Azərbaycan poeziyasının mövzu cəhətdən zənginləşməsi və poetexnikasının əlvanlaşmasına xidmət etmişdir. Milli mündəricəli ustad sənətkar çoxşaxəli və zəngin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında istiqlal düşüncəsi və milli birliyin təbliğinə böyük cəsarət göstərmişdir.

Milli soykökə, mental dəyərlərə, adət-ənənələrə, xalq həyatı, düşüncəsi və yaşayış tərzinə yüksək sədaqətlə bağlı olan Xalq şairinin yaradıcılığı Azərbaycan ictimai fikri və ədəbiyyatında milli düşüncənin dərinləşməsinə təkan vermişdir. Azərbaycan xalqının milli müqəddəratı və tarixi taleyi, ailə dəyərləri onun yaradıcılığı üçün başlıca mövzu təşkil etmiş, bütün istiqamətləri ilə – insana, Vətənə, torpağa, xalqa, Vətənin təbiətinə, dəyərlərinə, tarixinə, mədəniyyətinə, ümumiyyətlə, dünyaya, insana və bəşəriyyətə sonsuz, müqəddəs və ülvi bir məhəbbət, yenilməz və əskilməz bir sevgi ifadə etmişdir. Bu mənada, heç təsadüfi deyil ki, bu görkəmli Xalq şairini istər peşəkar, istərsə də həvəskar oxucu vətəndaş-şair kimi tanıyır. Onun poeziyası vətəndaşlıq lirikası kimi səciyyələndirilir. Vətən mövzusu onun zəngin poeziyasının ali mövqeyini təşkil edir. Milli ədəbiyyatımızda vətəndaşlıq konsepsiyasının poetik təzahürünü də məhz bu görkəmli söz ustadı yaratmışdır. Dillər əzbəri olan "Məndən ötdü, qardaşıma dəydi" şeiri milli tarixi taleyin acı və kədərli təcrübəsinin nidası olaraq səslləndiyi kimi, "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" kimi məşhur vətəndaşlıq konsepsiyası və poetik etirafını da məhz Xalq şairi Məmməd Araz səsləndirmişdir. Onun yaradıcılığından həmişə dik, böyük, alnıaçıq, məğrur bir Azərbaycan boylanır; tarixin keşməkeşlərindən məğrurluqla çıxan, çətin sınaqlarına sinə gərən qəlbi böyük, mənəviyyatı zəngin, vətənpərvər bir Azərbaycan...

O bütün yaradıcılığı ilə xalqın milli oyanış, mübarizə və birlik carçısı idi. Onun əsərlərindən azadlıq və birlik yanğısı bütün maneələri dağıdan, aşıb-daşan qoca bir vulkan kimi püskürürdü. "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı", – deyən qoca sənətkar "Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim", – deyə məhəbbətini bütün aydınlığı, çılpaqlığı ilə ortaya qoymuşdu. Onun qələmi də "Xətainin qılıncından" doğulmuşdu. "Qələm gəldi əlimə, Araz gəlir dilimə", – deyən şair "məqamı gələndə Araza bənd" olandı. Xudafərin harayından qalan şair yaradıcılığı ilə Araz kimi ikiyə bölünmüş xalqın arasından dərdli və coşqu ilə axıb keçərək həm də körpü rolunu oynayır. "Bütün keşməkeşləri", "sel boğan dərələri" Vətən adı ilə keçən ləyaqətli insan, sədaqətli vətəndaş, Xalq şairidir Məmməd Araz. Hər zaman yaşamağa haqqı olan bir qüdrətli söz ustadı Məmməd Araz!

Xalq şairi Məmməd Araz özünün Vətənə həsr olunan şeirləri, əsərləri ilə Azərbaycançılıq məfkurəsini təbliğ etmiş və Azərbaycan istiqlalına görkəmli xidmət göstərmiş sənət adamıdır. Onun "Ana torpaq", "Şeirə gətir", "Məndən ötdü, qardaşıma dəydi", "Azərbaycan, dünyam mənim", "Ana yurdum, hər daşına üz qoyum", "Qarabağ düzü", "Vətən mənə oğul desə", "Vətən mükafatı", "Bizi vətən çağırır" və digər çoxsaylı əsərləri şairin Vətən məhəbbəti və vətəndaşlıq düşüncələrini qabarıq əks etdirən ən gözəl poetik nümunələrdəndir. Ümumiyyətlə, milli müqəddərat və birlik məsələsi, həmrəylik ideyası Məmməd Araz yaradıcılığının başlıca qayəsini təşkil etmişdir. "Ayağa dur, Azərbaycan!" və başqa şeirləri Azərbaycanın milli müstəqillik uğrunda apardığı mücadilə dönəmində böyük mənəvi güc rolunu oynamışdır. Bütün mücadilə aşiqləri onun şeirlərinin misralarını zümzümə etməklə döyüş meydanında sərhəd dirəyinə dönürdülər. Görkəmli şairin "Ayağa dur, Azərbaycan!" şeirində, bütövlükdə, Azərbaycan xalqının milli istiqlal idealları və düşüncəsi özünü əks etdirib. Qarabağ və digər ərazilərimizə mənfur düşmənlərin xain hücumu olanda qoca şair döyüş və mübarizə əzmi əks etdirən, yaralarımızın ağrısı olan şeirlər də yazmışdı. "Ata millət, ana millət, ağlama", – deyib xalqının kədərini ovundurub, mübarizliyə, vətəndaşlıq əzminə səsləyən müdrik şairimiz, yəqin ki, 2020-ci ildə qazandığımız böyük, şanlı qələbədən sonra Qarabağa, Şuşaya, Kəlbəcərə, Laçına qayıdış münasibətilə böyük sevinc duyğularını ifadə edən şeirlərini yazardı.

Heç bir poeziya nümunəsində Məmməd Araz yaradıcılığında olan qədər bir "ata ocağı" Vətənin, ana yurdun ümumiləşmiş obrazı kimi təqdim olunmur. Onun yaradıcılığında ata ocağı, dədə yurdu Vətənin ümumiləşmiş obrazı olaraq özünə yer tapır. Halal zəhmət sahibi olan ata da, gur səsli baba da, əllərin zəkası olan nənə də, sinəsi məhəbbət və xalqın söz sərvətilə dolu ana da, kişilik təcrübəsilə zəngin əmi də, ailə birliyini qoruyub-saxlayan bacı və qardaş da, hətta gələcəyə kövrək addımlarını atan övladlar – qızlar da, "sel boğan dərələri keçdiyi bir mərd qadın" – ömür-gün yoldaşı da bir ailə olaraq məhz Məmməd Arazın yaradıcılığında əhəmiyyətli dərəcədə ümumiləşdirilmiş obraz olaraq yer alır və ali dəyərlərin təcəssümü kimi bədiiləşir, bütöv bir xalqı, onun ali dəyərlərini təcəssüm etdirir. Saf, sonsuz bir ailə bağlılığı və məhəbbəti də məhz onun yaradıcılığında özünə yer alır. Qeyrətli, sədaqətli, vəfalı, "gözdən göz izi" sezən həssas bir məhəbbət də, sevda da Məmməd Araz poeziyasında görünür. Bütün bu nailiyyətlər, bu oxunaqlı, zəngin, sənətkarcasına yazılmış poeziya nümunəsi ana dilinin üslubi imkanlarından qeyri-adi dərəcədə yararlanaraq ortaya qoyulur. Ana dili bütün zənginliyi, dərinliyi, əlvanlığı ilə məhz onun sənətkar qələmindən çıxan yaradıcılığında yenidən milli dəyər, vətəndaşlıq məhəbbəti qazanır.

Görkəmli söz ustadı Məmməd Araz adına bütün həyatının mənası, amalı hopan, yaradıcılığında öz ifadəsini tapan, qayəsi, məqsədi bütün dolğunluğu ilə əks olunan bir sənətkar – şəxsiyyətdir. Şeirə, yaradıcılığa bütün ruhu ilə bağlanan, səmimiyyətini ifadə edən şair, bəlkə də, doğmalarının bilə bilmədiyi "sirləri" böyük məmnuniyyətlə misralarında etiraf edib, oxucuları ilə bölüşüb. Bütün bu sevgiyə, xalqa bağlılığına görədir ki, Məmməd Araz şeiri axan bir su, qaynayan bir bulaq təsiri bağışlayır. Sözün axıcılığı, misranın dərinliyi, fikrin canayaxınlığı Məmməd Araz şeiriyyətində əsas səciyyəvi xüsusiyyətdir. Bu misralar öz məna gücü və poetik dərinliyi ilə oxucunu özünə bağlayır və oxucu düşüncəsini öz təsir gücü ilə cəzb edərək özü ilə birlikdə uca zirvələrə, dərin mətləblərə aparır, ülviliyə, müqəddəsliyə qovuşdurur.

Xalq şairi Məmməd Arazın yaradıcılığı hər zaman sevilən və seviləcək bir dəryadır. Hər zaman özünə böyük bir oxucu məhəbbəti, maraq cəlb edən Xalq şairi Məmməd Araz yaradıcılığını Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də çox sevmiş, olduqca yüksək dəyərləndirmişdir. Buna görə də hələ sağlığında şair Ulu Öndər Heydər Əliyevin qayğısı ilə əhatə olunmuşdu. ***"Xalq şairi Məmməd Araz dövrümüzün sənət zirvəsində durur"***, – deyən dahi lider onun yaradıcılığına ən yüksək qiymət vermişdir. Məmməd Araz Azərbaycanın "Əməkdar mədəniyyət işçisi", "Əməkdar incəsənət xadimi", "Xalq şairi" adlarına layiq görülmüş, dövlət mükafatı almış, "İstiqlal" ordeni ilə təltif edilmişdir.

Bu görkəmli söz ustadının indi də xatirəsi əziz tutulur. Azərbaycan ədəbiyyatında daşıdığı şərəfli ada, tutduğu layiqli mövqeyə və Azərbaycan xalqı qarşısında göstərdiyi əvəzsiz xidmətlərə görə "Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 27 sentyabr tarixli Sərəncamı görkəmli şairə Azərbaycan dövlətinin göstərdiyi ehtiramın və qayğının, eləcə də el məhəbbətinin ən bariz nümunəsi kimi razılıq doğurur. Sərəncamda Xalq şairinə və onun sənətinə yüksək qiymət ifadə edilərək deyilirdi: *"Müasir Azərbaycan ədəbiyyatının inkişafında Məmməd Arazın özünəməxsus yeri və rolu vardır. Onun dərin fəlsəfi məzmunlu lirikası zəngin ənənələrə malik milli poeziyamızı keyfiyyətcə yeni mərhələyə qaldıraraq daha da zənginləşdirmişdir. Məmməd Arazın gənc yaşlarından başlayaraq yarım əsrdən artıq davam edən ədəbi fəaliyyəti mənsub olduğu xalqa layiqli şair-vətəndaş xidməti nümunəsidir. Doğma Vətənə bağlılıq, istiqlalçılıq, vətəndaşlıq hisslərinin tərənnümü, fikir dərinliyi və sadəlik, poetik təfəkkürün genişliyi kimi yüksək keyfiyyətlər Məmməd Araz yaradıcılığına uzunömürlülük bəxş etmiş, onun qələminə məxsus əsərlər geniş oxucu kütləsinin rəğbətini qazanmışdır".* Bu cəhətdən Xalq şairinin Vətəni Naxçıvanda görkəmli sənətkarın yubileyləri böyük təntənə ilə qeyd edilmiş, doğma kəndi Nursuda ev-muzeyi yaradılmış, "Naxçıvan" jurnalının bir nömrəsi və "Məmməd Araz: taleyi və sənəti" kitabı ona həsr olunmuş, əsərləri yenidən çap edilmişdir.

*Taleyi adına yazılmış Xalq şairi Məmməd Arazın ölməz əsərləri hər zaman bölünmüş Vətən torpaqlarını birləşdirən bir körpü rolunu oynayır, birlik və xoşbəxtlik idealına xidmət edir.*

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## "Oğul" filmi nümayiş olunub



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Birinci Qarabağ müharibəsi döyüşçüsü, itkin Natiq Qasımov haqqında çəkilmiş "Oğul" filmi nümayiş olunub.

Film başlamazdan əvvəl torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov ekran əsəri haqqında məlumat verib. Bildirilib ki, 3 il ərzində ərsəyə gətirilən sənədli filmin rejissor və ssenari müəllifi Karan Sinqh Azərbaycan, Ermənistan, Rusiya, İtaliya və Böyük Britaniyada şahidlərlə görüşüb, müsahibə alıb. Film Böyük Britaniyanın "Broken Pot Media" şirkəti tərəfindən italiyalı hərbi fotoreportyor Enriko Sarsininin fotoları əsasında ekranlaşdırılıb.

Sonra film nümayiş olunub.

"Oğul" sənədli filmində vətənpərvər Azərbaycan oğlunun mərdliyi, qorxmazlığı ilə yanaşı, erməni riyakarlığının, yalanlarının ifşası da yer alır. Birinci Qarabağ müharibəsi zamanı döyüş yoldaşlarını itirən Natiq Qasımov alban kilsəsində mühasirədə qalır. Böyük qəhrəmanlıq göstərən, təkbaşına döyüşən Natiq ermənilər Xocalıda əsir götürdükləri 22 azərbaycanlını öldürməklə təhdid etdikləri üçün təslim olur. Natiqin cəsarəti, qürurla sarıldığı Azərbaycan Bayrağına olan sevgisi, barəsində aparılan axtarışlar filmdə özünə yer alıb. Natiq Qasımovun əsir götürüldükdən sonra ermənilər tərəfindən dindirilən zaman çəkilən fotoları onun haqqında bilinən sonuncu məlumatdır. Vətənpərvər döyüşçünün sonrakı aqibəti məlum deyil.

"Oğul" filmi izləyicilər tərəfindən maraqla qarşılanıb.

## Naxçıvan Dövlət Filarmoniyası Trabzon şəhərində konsert proqramı ilə çıxış edib



Naxçıvan Dövlət Filarmoniyası Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğunun təşkilatçılığı ilə Trabzon şəhərində konsert proqramı ilə çıxış edib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konsert başlamazdan əvvəl çıxış edən ölkəmizin Qars şəhərindəki Baş konsulu Nuru Quliyev Ulu Öndərin xalqımız və dövlətçiliyimiz qarşısındakı müstəsna xidmətlərindən, Vətən müharibəsində qazandığımız möhtəşəm zəfərdən, Türkiyə-Azərbaycan qardaşlığı və birliyindən danışıb.

Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin müşayiət etdiyi musiqi çələngində Müslüm Maqomayevin "Azərbaycan", Aytən Alpmanın "Məmləkətim", Fikrət Əmirovun "Min bir gecə" baletindən fraqmentlər, Tofiq Quliyevin "Sənə də qalmaz", Üzeyir Hacıbəylinin "Çırpınırdı Qara dəniz", Eldar Mansurovun "Sabaha İlhamla" və digər musiqi və rəqs nömrələri təqdim edilib. Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov, Gülyanaq Fərzəliyeva, solist İlkin Abdullayevin ifa etdiyi əsərlər rəğbətlə qarşılanıb.

Konsert proqramı Cavanşir Quliyevin "Azərbaycan-Türkiyə" əsəri ilə sona çatıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## *"Qərbi Azərbaycan-tarixin izi ilə"* adlı sərgi keçirilib



Naxçıvan Müəllimlər İnstitutunda Təbiət və İncəsənət fakültəsinin İncəsənət kafedrasının təşkilatçılığı ilə Qərbi Azərbaycanla bağlı Tədbirlər Planı çərçivəsində Təsviri incəsənət müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrin əl işlərindən ibarət "Qərbi Azərbaycan-tarixin izi ilə" adlı sərgidə institutun rektoru Azad Novruzov cənab Prezidentin 2022-ci il 24 dekabr tarixdə Qərbi Azərbaycan İctimai Birliyinin üzvləri ilə görüşündə dediyi "Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq", həmçinin "Azərbaycan bu prosesi sülh yolu ilə həyata keçirəcək, bu məqsədə çatmaq üçün beynəlxalq hüququn imkanlarından da maksimum faydalanacaq" fikirlərini xatırladaraq bildirib ki, bu gün yüz minlərlə soydaşımızın Qərbi Azərbaycana qayıdışı, eyni zamanda milli qürur və ləyaqətimizin müdafiəsi deməkdir.

Azad Novruzov sərginin təşkilində böyük əməyi olan İncəsənət kafedrasının dosenti, 65 illik yubileyi qeyd olunan Nizami Alıyevi təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb, institutun Fəxri fərmanını Nizami Alıyevə təqdim edib.

Tədbirdə İncəsənət kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyeva bildirib ki, kafedranın müəllimlərinin rəhbərliyi altında təşkil olunan sərgidə Qərbi Azərbaycana qayıdışı əks etdirən, ümumilikdə, 40-a yaxın çoxfiqurlu, gələcəyə ümidlə baxmağa sövq edən kompozisiya, Qərbi Azərbaycanda yerləşən tarixi abidələr – məscidlər, məbədlər, qəbirüstü abidələr, qayaüstü rəsmlər və sair bu kimi tarixi-mədəniyyət nümunələri, möhtərəm Prezidentimizin Zəngəzur dəhlizi və Qərbi Azərbaycanla bağlı dediyi fikirlər tələbələrimizin dekorativ-tətbiqi sənət nümunələrində əks olunub.

Sonra Naxçıvan Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, İncəsənət kafedrasının dosenti Nizami Alıyev çıxış ediblər.

Sonda sərgiyə baxış keçirilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

# Şərqin qapısından ucalan mötəbər qayıdış sədası...

*35 il bundan öncə, daha dəqiq desək, 1988-ci ildə Qərbi Azərbaycandan, Vedibasardan, Dərələyəzdən deportasiya olunan sonuncu həmyerlilərimizin də üzünə ümid, inam qapısı açan Naxçıvan ötən həftə onların əzəli yurda qayıdışına xeyir-dua qapısı açdı. Bəli, noyabrın 23-24-də haqqın, ədalətin bərpa səsi ucaldı Şərqin qapısından bütün dünyaya. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilən “Qərbi Azərbaycana qayıdış” festival-konqresi siyasi-ictimai əhəmiyyəti, elmi-mədəni çəkisi ilə öz möhürünü vurdu Qayıdış Konsepsiyasının icrası prosesinə...*



“Qərbi Azərbaycana qayıdış” festival-konqresi “qızıl alma”, “Günəş və yollar”, “istiqamət oxları” simvollarını özündə birləşdirən, əzəli yurd yerlərimizin tarixi kimliyindən, azərbaycanlılara məxsusluğundan xəbər verən loqosu ilə buraya təşrif buyuran onlarla ziyalı və alimin elə ilk baxışdan diqqətini çəkdi, tədbirə böyük maraq oyatdı. Naxçıvan Dövlət Milli Dram Teatrında “Qərbi Azərbaycana qayıdış” festivalı və “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresinin açılış tədbirində çıxış edənlər faktlarla zəngin əhatəli nitqlərində soydaşlarımıza qarşı həyata keçirilən mənfur deportasiya siyasətinin bütün qaranlıq məqamlarına aydınlıq gətirdilər. Ölkə Prezidenti cənab İlham Əliyevin qərbi azərbaycanlılar məsələsində daim nümayiş etdirdiyi prinsipial mövqe, onların hüquqlarının bərpa olunmasına və öz doğma torpaqlarına qayıtmasına qəti və birmənalı dəstəyi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının icrası ilə bağlı tapşırıqları bütün mahiyyəti ilə izah olundu, haqq-ədalətin bərpasının vacibliyi barədə dünya ictimaiyyətinə elmi əsaslara söykənən mesajlar verildi. Dövlət başçımızın ***“Biz torpağımıza tankla, topla deyil, dinc şəkildə qayıtmaq istəyirik”*** ideyası festival-konqresin işinin əsas qayəsinə, devizinə çevrilməklə iştirakçı ziyalı və alimlərin məruzələrində, müsahibələrdə diqqətə çəkilən əsas məqamlardan oldu...





Festival-konqres çərçivəsində nümayiş olunan bədii kompozisiyalar, folklor nümunələri ən incə məqamlarının dərin mənası ilə yaddaşlarda silinməz izlər buraxdı, unudulmaz nostalji anlar yaşatdı. Xüsusilə Naxçıvan Dövlət Universitetinin Tələbə teatr studiyasının üzvlərinin ifasında “Azərbaycanı sevin” tamaşa-kompozisiyası tədbirin möhtəşəmliyinə bir az da möhtəşəmlik gətirdi. Azərbaycanı vahid dövlət halında birləşdirməyə çalışan xanlıqların buna müyəssər ola bilməməsi və 200-300 ildən sonra Müzəffər Lider rəhbərliyi ilə ərazi-bütövlüyümüzün, suverenliyimizin bərpası ilə üçrəngli bayrağımızın Qarabağda, Şuşada, Xankəndidə dalğalanmasını bədii formada mükəmməl şəkildə ifadə edən səhnə əsəri bu zəfərin, qələbənin əbədiliyi naminə daim həmrəy olmağı, Azərbaycanı sevməyi ən üstün məziyyət kimi təlqin etdi. Tamaşanın süjet xətti, obrazlar həm də böyük yazıçı, dramaturq Cəlil Məmmədquluzadənin “Anamın kitabı” dramını, əsərdəki Gülbaharın qardaşlarını vahid ölkə, dil, əqidə, amal ətrafında birliyə-bərabərliyə çağırışlarını xatırlatdı. Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələrinin iştirakı ilə Qərbi Azərbaycana məxsus “Qazı-qazı” yallısı, Qərbi Azərbaycan ənənələri əsasında hazırlanan səhnəciklər, eləcə də “Araz” Dövlət Qəbul Evində təqdimatı keçirilən, İrəvan mətbəxinə aid 40 adda yemək, 50-yə yaxın şirniyyat və mürəbbə, 30-a yaxın şərbət, doşab, xoşab, 100-ə yaxın meyvə, quru meyvə və tərəvəz, 50-dən çox müalicəvi bitki, 20 adda qış tədarükü qidası, 13 növdə müxtəlif çay nümunələrindən ibarət Qərbi Azərbaycan kulinariyası festival-konqresin praktiki önəmini artırmaqla hazırlığın ciddiyyətindən xəbər verdi.

“Qərbi Azərbaycana qayıdış” festival-konqresin ikinci günü Qərbi Azərbaycan İcmasının üzvlərinin, iştirakçıların Ordubad və Kəngərli rayonlarına səfərləri ilə əlamətdar oldu. Ordubad rayonunun Parağa və Kəngərli rayonunun Çalxanqala kəndlərində deportasiya olunan soydaşlarımızla görüş onlarda tezliklə doğma yurdlarına qayıdacaqlarına dair inam, əminlik hissləri yaratdı. Görüşlərdə sərgilənən Qərbi Azərbaycana məxsus folklor nümunələri,





mədəniyyət və mətbəx nümunələri, müxtəlif məişət əşyaları genetik yaddaşın bərpasına xidmət etməklə həm qonaqlara, həm də bütün dünyaya əzəli yurdumuzun tarixindən, mədəniyyətindən söhbət açdı. Bölmə iclaslarında “Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar”, “Qərbi Azərbaycanın mədəni sərvətləri”, “Qərbi Azərbaycan dil faktları və toponimikası”, “Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri” və digər mövzuları əhatə edən məruzələrdə tarixi yerlərin tədqiqi, onların ədəbi, bədii, mədəni, dəyişdirilən adları ilə bağlı məsələlərə toxunuldu, yeni yanaşmalar, tezislər irəli sürüldü. Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində nümayiş olunan “Yada Daşı” və “Nəsil ağacı” sənədli filmləri Qərbi Azərbaycanın, Zəngəzurun dağıdılmış tarixi abidələri, etnoqrafiyası, mətbəxi, tanınmış şəxsiyyətləri və vətənsiz qalmış soydaşlarımızın acı taleyini gözlər önünə sərməklə hafizələri yenidən təzələdi, qan yaddaşımızı, keçmişimizi, mənəvi irsimizi unutmamağın önəmini aşıladı gənc nəslə...

Qərbi Azərbaycana qayıdışa həsr olunmuş festival-konqres bədnam qonşularımızın gündəmini silkələdi, soydaşlarımızda isə Vətənə, el-obaya dönüşə inam, ümid qığılcımlarını daha da alovlandırdı. Bu barədə pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov qeyd etdi: *“Peşəkarlıqla hazırlanan, zərgər dəqiqliyi ilə həyata keçirilən bu festival-konqres ermənilərə və havadarlarına ciddi bir mesajın ifadəsi olmaqla yanaşı, həm də doğma yurd-yuvasından didərgin düşən soydaşlarımızın Qərbi Azərbaycana qayıdışına mühüm bir töhfə oldu, millətin sarsılmaz birliyini, 30 il qarabağlı olan xalqımızın ürəyinin indi Qərbi Azərbaycanla döyündüyünü təsdiq etdi”.* Festival-konqres iştirakçılarından AMEA Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Elnur Kəlbizadənin dedikləri: *“...konqresin açılış mərasimindən, keçirilən tədbirlərdən sonra biz erməni kütləvi informasiya vasitələrini çox yaxından izlədik və böyük bir narahatçılıq gördük. Bu konqres bu gün erməni mətbuatında, kütləvi informasiya vasitələrində Ermənistandakı Azərbaycanşünaslar tərəfindən çox ciddi şəkildə müzakirə olunur. Bu o deməkdir ki, artıq bu konqres-festival özünün ilkin məqsədlərinə, ilkin hədəflərinə nail olub. Amma ermənilərin atdığı iftiralardan fərqli olaraq bizim məqsədimiz tarixi dədə-baba torpaqlarımıza sülh yolu ilə, beynəlxalq hüquq çərçivəsində qayıtmaqdır”.* Ümumiyyətlə, iştirakçılar, ziyalı və alimlər müsahibələrində festival-konqresin önəmi barədə bir sıra vacib nüanslara toxundular. Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Naxçıvanda keçirilən bu möhtəşəm tədbiri Qərbi Azərbaycana Qaydış Konsepsiyası yolunda çox mühüm bir addım kimi dəyərləndirdi. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev dedi: *“Konqresdə səslənən elmi iddialar, tədqiqatlar, Qərbi Azərbaycanla bağlı hazırlanmış yeni tədqiqat mövzuları bizim ümumi ölkəmizin qayıdış konsepsiyasına uyğun olacaq. Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara Böyük Qayıdışdan sonra Qərbi Azərbaycan İcmasıyla görüşü və Qərbi Azərbaycan Qayıdış Konsepsiyası üzərində strateji proqram xarakterli çıxışları bizim üçün əsas sənəddir. Bu sənədin işığında ali təhsil müəssisəsi olaraq gələcəkdə elmi-tədqiqat yolu ilə yeni əsərlər, kitablar ərsəyə gətirib, qədim elobanın sakinlərinin öz doğma torpaqlarına qayıdılmasını elm yolu ilə ədalətlə təmin olunmasını hədəfləyirik”.* Xalq artisti Nurəddin Mehdixanlı isə qeyd etdi: *Azərbaycanın hədəfləri, Azərbaycan xalqının hədəfləri burada – Naxçıvanda çox açıq şəkildə ortaya qoyuldu. Hələ Azərbaycanın üçrəngli bayrağının dalğalanacağı çox zirvələr var. Naxçıvanda bu tədbirin baş tutması, əslində, çox ciddi mesajdır. Biz varıq və biz gəlirik, Vətənimizə qayıdırıq”.* Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının üzvü Abel Məhərrəmov isə əminliklə vurğuladı: *“Naxçıvanda keçirilən festival-konqres insanlarda yeni düşüncə, yeni fəaliyyət formalaşdıracaq. Fəaliyyətin nəticəsində isə Qərbi Azərbaycana qayıtmaq arzumuz gerçəkləşəcək”.*





Ümumilikdə, noyabrın 23-24-də ölkəmizdə ilk dəfə Naxçıvanda keçirilən *“Qərbi Azərbaycana qayıdış” festival-konqresi dövlət başçısının Qayıdış Konsepsiyasında qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində mühüm addımlardan biri kimi təqvimə qızıl hərflərlə həkk olundu. Şərqin qapısından ucalan mötəbər qayıdış sədalarında ölkə Prezidenti cənab İlham Əliyevin fikirlərinin əminliyi bir daha bəyan olundu:* ***“Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”.***

**✍ Nail ƏSGƏROV**

## *“Heydər Əliyev milli tariximizin zirvəsidir”* adlı tədbir keçirilib

Şəhərimizdəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev milli tariximizin zirvəsidir” adlı tədbir keçirilib. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı şəhər 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi və Naxçıvan Muxtar Respublikası Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfli həyat yoluna nəzər salınıb, xalqımıza göstərdiyi müstəsna xidmətlərdən bəhs edilib.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı şəhər 3 nömrəli Uşaq-Gənclər İnkişaf və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq mərkəzlərinin dərnək üzvləri tərəfindən musiqi, şeir və rəqs nömrələri nümayiş olunub.

**✍ Bülbül QULİYEVA**

### *İtmişdir*

Naxçıvan şəhəri, 11-ci məhəllə, ev $1^{F}$-də yaşayan Əsgərova Xanımzər Əli qızının adına olan evin 31.01.2018-ci il tarixdə verilmiş 1218000535 qeydiyyat nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, 14613 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini Əliyev Əsgər əli oğlunun adına olan JN-765 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 689